# *Aşıq Ələsgərin hikmət dünyası*



*İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı mahalım mənim!*
*Püşti-pənahına daldalanmışam,*
*Adım Ələsgərdi, əslim Göyçəli!*

*Alçaqda dayan ki, çıxasan başa.*

*Alimin elmi ilə helmi yarıdı.*

*Arif məclisində bir söz söylərəm,*
*Nə hədyan, nə çaşqın, nə qələt olmaz*

*Baxt yatanda qohum-qardaş yad olu.*

*Bədəsildən hərgiz olmaz heç əsil.*

*Aşıq olub diyar-diyar gəzənin*
*Əzəl başdan pür-kamalı gərəkdi.*
*Oturub durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdə mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra.*
*El içində pak otura, pak dura,*
*Dalınca xoş sədalı gərəkdi.*

*Mərd oğlun qəhrini çəkən mərd ana,*
*Mərd igid meydanda durar mərdana.*

*Bir mərd ilə ağı yesən şirindir*
*Yüz namərdlə şəkər yesən dad olmaz.*

*Əl vurma gücün çatmayan daşa,*
*Qaldıra bilməzsən zora düşərsən.*

***Bir şəyird ki, ustadına kəm baxa,***
***Onun gözlərinə qan damar, damar.***

***Ələsgərin sözün yetir nisaba,***
***Sərf edənlər səbt eləsin kitaba.***
***Heç namərdin adı gəlməz hesaba,***
***Mərd bir olar, onda iki ad olmaz.***

***"Can" deməklə candan can əskik olmaz,***
***Məhəbbət artırar, mehriban eylər.***
***"Çor" deməyin nəfi nədi dünyada?!***
***Abad könülləri pərişan eylər.***

***"Can" deyənə "can" deynən mərdana,***
***Baş qoyanın, qoy yolunda başa baş.***

***Can qurban eləsən, layiqdi layiq,***
***Bir yar ki, mətləbi tez qanan ola.***

***Günahkardı nə ki yoldan azan var,***
***İki mələk - xeyir-şəri yazan var.***
***Nəkreyin var, Qıl körpü var, qazan var,***
***Rövşən yollarını tar eyləməynən!***

***Bir sazım var, nə pərdəsi, nə simi.***
***Onu çalıb, kim tərpədər nə simi?***
***Firdovsi, Fizuli, Hafiz, Nəsimi -***
***Onlar da yazdığı, ayə, məndədi.***

***Bəylik, göylük, səylik olan məclisdə,***
***Qaç ki, orda xeyir-bərəkət olmaz.***

***Çox gəzmişəm, az görmüşəm danəndə.***

***Danışanda doğru danış,***

***Sözün çıxmasın qələt.***

***Doğru yola əmək çəksən zay olmaz.***

***Dövlətdən qismətin beş arşın ağdı***

***Dosta xain baxan kor olaçaqdı.***

***Dost dostdan inciyər, qəlbində dönməz.***

***Dost uzaq olmaqla könül yad olmaz***

***Eşit bu sözləri, saxla yadigar,***
***Gözəllərdə həya, igidlərdə ar.***

***Ələsgər, elmində olma nabələd,***
***Doğru söylə, sözün çıxmasın qələt.***

***Əlin vurma gücün yetməyən daşa,***
***Götürə bilməzsən, zora düşərsən.***

***Xalqa həqiqətdən mətləb qandıra,***
***Şeytanı öldürə, nəfsin yandıra,***
***El içində pak otura, pak dura,***
***Dalısınca xoş sədası gərəkdir.***

***Əyləşəndə ağır əyləş,***
***Danışanda az danış.***

***Gədadan bəy olmaz, dəlidən darğa.***

***Görürsən ki, baxtın yatdı, sən də yat.***

***Gül olma dünya malına,***
***Qalacaqdı dünyada.***

***Haqdan yanan çıraq bad ilə sönməz.***





*Haqq ilə nahaqqı axtaran hakim,*
*Tapar qulaq ilə göz arasında.*

*İki könül bir-birini tutmasa,*
*Alan da yazıqdı, gələn də yazıq.*

*Kişi gərək dediyindən dönməsin.*

*Qiyamət odundan pisdir tənə söz*

*Nakəs, müxənnətdən mətləb diləmə.*

*Nütfədən pak olan, loğmandan halal,*
*Mərifət elminə nabələd olmaz.*

*Sayğısız iyidi düşman aldadar*





